# AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 2/21

Bakı şəhəri 15 fevral 2017-ci il

Akademik Həsən Əliyevin 110 illik
yubileyi ilə əlaqədar Tədbirlər Planı haqqında

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Akademik Həsən Əliyevin 110 illik yubileyinin keçirilməsi haqqında" 07 fevral 2017-ci il tarixli 2655 nömrəli Sərəncam imzalamışdır. Sərəncamın icrasından irəli gələn məsələləri həll etmək məqsədi ilə Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə birgə Tədbirlər Planı hazırlamışdır.

Azərbaycanın görkəmli təbiətşünas alimi, respublika Dövlət Mükafatı laureatı, Əməkdar elm xadimi, akademik Həsən Əlirza oğlu Əliyevin anadan olmasının 110 illik yubileyinin yüksək səviyyədə qeyd edilməsini təmin etmək məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. Akademik Həsən Əliyevin 110 illik yubileyi ilə əlaqədar Azərbaycan Milli Elmlər Akademiyasının, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər və Kənd Təsərrüfatı nazirliklərinin birgə hazırladığı Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).
2. AMEA-nın Yer Elmləri Bölməsinin akademik-katibi, akademik Fəxrəddin Qədirova tapşırılsın ki, Tədbirlər Planının icrasından irəli gələn məsələləri həll etsin.
3. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT